# İCTİMAİ HƏYAT

"Yazıçılar İttifaqı 63 ildir yaşayır. O, xalqımıza nə qədər böyük fayda verib. İndi durub deyək ki, bu Yazıçılar Birliyi lazımdır, ya lazım deyil? Şübhəsiz ki, indi sərbəstlikdir, hərə öz fikrini deməlidir, bu da tam təbiidir. Amma mən öz fikrimi deyirəm, əlbəttə ki, Yazıçılar Birliyi lazımdır... Mən hesab edirəm ki, Azərbaycan Yazıçılar Birliyi bu altı il müddətində - keçən qurultaydan indiyə qədər - çox iş görübdür. Yazıçılar Birliyini qoruyub saxlayıb, onun parçalanmasına, dağılmasına yol verməyiblər. Axı Yazıçılar Birliyi də böyük sınaqlardan keçib. Görürsünüz ki, bu altı ildə baxın Azərbaycanın başına nə işlər gəlibdir. Yazıçılar Birliyi də bütün bu sınaqlardan, imtahanlardan keçibdir. Ona görə də şəxsən mən belə hesab edirəm ki, bunu yüksək qiymətləndirmək lazımdır. Yazıçılar Birliyinə rəhbərlik edən şəxslərin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır".

**Heydər ƏLİYEV**
*29 oktyabr 1997-ci ildə gənc yazıçılarla görüşündə söylədiklərindən*

Son illər Yazıçılar Birliyinin fəaliyyəti çox uğurlu olub, gənc yazıçılara və onların qayğılarına diqqəti xüsusilə qeyd etmək lazımdır. Mən görülmüş işlərə görə Sizə təşəkkür edirəm. Bizim xalqın lideri Heydər Əliyev 1993-cü ildən 2003-cü ilə kimi daima yazıçılara, Yazıçılar Birliyinə böyük diqqətlə yanaşıb. Və mən də öz tərəfimdən çalışıram ki, bu siyasəti davam etdirim. Əmin ola bilərsiniz ki, mən Sizi həmişə dəstəkləyəcəyəm, köməklik göstərəcəyəm.

**İlham ƏLİYEV**
*"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yazıçılar Birliyinin rəhbərliyini qəbul edib" "Ədəbiyyat qəzeti", 21 may 2004*

Bu gün Orta Asiya və MDB ölkələrinin çoxunda Yazıçılar Birliyi fəaliyyət göstərmir. Azərbaycan Yazıçılar Birliyinin fəaliyyət göstərməsi və bu günə kimi də öz ənənələrini saxlamasını görmək mənim üçün olduqca sevindiricidir. Əgər Anar olmasaydı, Azərbaycanda Yazıçılar Birliyi dağılmışdı.

**Çingiz AYTMATOV**



*Çingiz Aytmatov və Oljas Süleymenov Yazıçılar Birliyində*

Belə ağır zamanda Azərbaycanlı həmkarların özlərinin Yazıçılar Birliyini bir yaradıcı təşkilat kimi qoruyub saxlaya bilmişlərsə, bu möhtəşəm binanı əldən verməyiblərsə, üstündə böyük söz sənətkarlarının imzası cızılmış tribunam dağıtmağa qoymamışlarsa, başda Anar olmaqla onların hamısına çox minnətdaram. Anar özünün həm ədəbi-mədəni aləmdəki, həm cəmiyyətdəki, həm də dövlət-hökumət nümayəndələri arasında nüfuzuyla Azərbaycan Yazıçılar Birliyini qoruyub saxlamağa müvəffəq olub. Mən sizin yazıçılara olunan dövlət qayğısını - hələ dahi Heydər Əliyevin zamanından verilməyə başlayan Prezident təqaüdlərinin, rəsmi adların təqdim edilməsində Anarın böyük rolundan danışmaqla vaxtınızı almaq istəmirəm. Anar, bütün görülən işlərə görə çox sağ ol.

**Oljas SÜLEYMENOV**
*"Ədəbiyyat qəzeti", 22 sentyabr, 2006*

Siz Azərbaycanın Rəsul Rza və Nigar xanım kimi təmiz ziyalı ailəsində xalqımızın keşməkeşli mürəkkəb həyatını yaşayan bir ocaqda böyüyüb boya-başa çatmış, şəxsiyyət və yazıçı kimi formalaşmısınız.

Yeni milli təfəkkürün formalaşmasında 60-cı illər nəslinin öndərlərindən biri kimi ədəbiyyat muzeyində, radioda, "Qobustan" toplusunda, Azərbaycan Yazıçılar Birliyində çalışdığınız illərdə yaradıcılığınızın çoxşaxəli və zəngin örnəkləri Azərbaycana yeni ab-hava, düşüncə və təsəvvür gətirib.

Rus-sovet rejiminin yaratdığı rəzalət, totalitar rejim mənzərəsi, insan haqlarına qarşı keskin sənətkar etirazı, Sizin bədii yaradıcılığınızın mayasını təşkil edir.

Azərbaycan milli-azadlıq hərəkatı tarixində və milli dövlətçilik şüurunun formalaşmasında Sizin bədii əsərlərinin müstəsna rol oynayır. Eyni zamanda milli-azadlıq hərəkatında iştirakınız minlərlə insanların oyanmasında, ziyalıların hərəkata qoşulmasında böyük rol oynamışdır.

Siz millət vəkili kimi bu gün də bu mücadilələrdə iştirak edir, başçılıq etdiyiniz mədəniyyət komissiyasında ölkənin demokratikləşməsi, mədəniyyətimizin yüksəlişi üçün əlinizdən gələn hər şey edirsiniz.

Bu gün Azərbaycanın ümummilli dəyərlərinin formalaşmasında, Bütöv Azərbaycan uğrunda hərəkatın genişlənməsində, Türk dünyasının iç-içə bağlanmasında Sizin gördüyünüz işlər, göstərdiyiniz xidmətlər çox böyükdür.

Mən Sizin Vətən, Millət, dövlətçilik və demokratiya naminə görəcəyiniz böyük işlərə, milli həmrəylik yolunda atacağınız addımlara ürəkdən inanıram. Sizə və ailənizə can sağlığı, xoşbəxtlik, yaradıcılığınızda, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,

**Əbülfəz ELÇİBƏY**
*Azərbaycan Xalq Cəbhəsi partiyasının sədri.*
*14 mart, 1998*

Heydər Əliyevin siyasətdən müvəqqəti uzaqlaşdırılması Azərbaycana baha başa gəldi. Onun yüksək vəzifədən və Siyasi Büro üzvlüyündən azad edilməsindən bir neçə gün sonra Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri akademik A.Aqanbekyan Parisdə ermənilər qarşısında çıxışında Dağlıq Qarabağın Ermənistana qatılması haqqında fikir söylədi və fitnəkarcasına bu təklifin Sovet rəhbərliyilə razılaşdırıldığını bəyan etdi.

Bu günə qədər davam edən Qarabağ faciəsi belə başlandı.

Dekabrın ortalarında Aqənbekyanın Parisdə çıxışı haqqında Bakıya xəbər çatan kimi Yazıçılar Birliyində yığışdıq, Qorbaçova müraciət etməyi qərara gəldik. Mənim hazırladığım 9 səhifəlik məktubda Qarabağın qədim Azərbaycan torpağı olması, bu gün Azərbaycanın tərkibində bütün siyasi, iqtisadi və mədəni hüquqlarının təmin olunması haqqında yazır, akademik Aqanbekyanın təxribatçı çıxışına Sov. İKP MK-nın münasibət bildirməsini tələb edirdik. Məktuba məndən başqa Mirzə İbrahimov, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Elçin imza atmışdılar.

Bir neçə gündən sonra mənə o vaxt Azərbaycan KR MK-nın ikinci katibi olan V.Konovalov zəng elədi, dedi ki, M.Qorbaçov məktubunuzu alıb və Azərbaycan yazıçılarını əmin edir ki, heç bir sərhəd dəyişikliyi olmayacaq. Elə həmin günlərdə Elçinlə mən Azərbaycan televiziyası ilə çıxış edib məsələyə münasibətimizi bildirdik. 1988-ci ilin fevral ayında MK-da Sov.İKP katibləri Razumovski və Demiçevin iştirakıyla keçirilən müşavirədə mən də çıxış etdim və dedim ki, Dağlıq Qarabağın Azərbaycan tərkibində Konstitusiyayla təsdiq edilmiş muxtariyyəti və bütün hüquqları təmin olunursa, Ermənistanda kompakt surətdə yaşayan 200 min azərbaycanlının heç bir inzibati qurumu yoxdur və hüquqları təmin olunmur. Biz Ermənistanda da azərbaycanlıların muxtar vilayətinin təşkil olunmasını tələb edirik.

Təəssüf ki, heç kəs bu məsələdə məni dəstəkləmədi, əksinə, rəhbər işçilərdən biri: "Biz hələ Qarabağ problemini həll etməliyik, sən də ortalığa Zəngəzur məsələsini atırsan" - dedi.

Halbuki o vaxt məhz Zəngəzur-Göyçə muxtariyyatı məsələsini qaldırsaydıq, müdafiə yox, hücum mövqeyində olardıq. Bir müddət sonra erməni millətçiləri BÜTÜN azərbaycanlıları ən qəddar şəkildə Ermənistandan qovdular və əlimizdə daha bu paritet imkanı qalmadı. (Amma görünür, Prezident İlham Əliyev demişkən hər şeyin vaxtı yetişməlidir. Qarabağ məsələsi həll olunandan sonra Qərbi Zəngəzur məsələsi ortama gəldi - **A.**)

**"Mübarizə bu gün də var" kitabından**

# İCTİMAİ HƏYAT

**Rus publisisti Sergey Lezov "Rossiyskaya qazeta"da (28 mart 1989) yazır:**

"Erməni rəmzinin başlıca mifi - mədənilikdi. Erməni rəmzinin ikinci mühüm elementi onların xristian xalqları arasında Şərqdə istehkam kimi təqdim olunmasıdır. Üçüncü mif bu iki elementlə bağlıdır - ermənilərin anlayışına görə - onlar özgə dinə tapınan, tərəqqidən geri qalmış xalqların əbədi qurbanlarıdı. Erməni xalqı İsanın özü kimi haqsız işgəncələrə məruz qalıb. Məhz bu sayaq təqdimat Azərbaycan yazıçısı Anara imkan verib ki, "erməni mazoxizmi" barədə, erməni əzablara sitayişinin xüsusiyyətləri haqqında söhbət açsın".

Görünür, S.Lezov mənim fransız qəzeti "Fiqaro"da bəzi məqamları təhrif edilmiş şəkildə çap olunmuş müsahibəmi nəzərdə tutur. "Fiqaro"nun müxbiri ilə mən Bakıda görüşəndə demişdim ki, Yerevandakı mitinqlərdə bəzi çağırışlar, məsələn, "biz əsgərləri vadar edəcəyik ki, bizə atəş açsın" kimi ifadələr mazoxistcəsinə səslənir. Qəzet isə mənim sözümü təhrir edərək yazmışdı ki, guya mən bütün ermənilər mazoxistdir - demişəm Bütün xalqı alçaltmaq əxlaqıma yaddır və mən fransız qəzetinə təkzib göndərdim, amma bununla belə erməni təbliğatı uzun illər ərzində bu mövzunu çeynəyib çürütdü, məni bütün günahlarda suçladı, terrorist təşkilatları isə mənim qətlimə fitva verdi və dərhal bu xəbəri mənə çatdırdılar"

**ERMƏNİSTAN YAZIÇILAR İTTİFAQININ SSRİ YAZIÇILAR İTTİFAQINA ANARDAN ŞİKAYƏTİ**

**SSRİ YAZIÇILAR İTTİFAQI İDARƏ HEYƏTİNİN KATİBİ Y.N.VERÇENKOYA**

Hörmətli Yuri Nikolayeviç!

Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin Birinci katibi Anarın antierməni, ermənilərə qarşı, milli ədavəti qızışdırdığına görə antisovet fəaliyyəti Sizə yaxşı məlumdur. O, mütəmadi olaraq xarici müxbirlərə Ermənistana, ermənilərə, ümumən erməniliyə qarşı çirkin iftiralarla, dezinformasiyayla, böhtanlarla dolu müsahibələr verir. Qəribə odur ki, bu "konsertlərinin" fasiləsində Anar SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi vəzifəsinə qədər yüksəlir. Bu necə olur - deyə soruşmuruq - bu SSRİ Yİ-nın səlahiyyətidir. Bizi SSRİ Yİ-nın katibliyinin münasibəti təəccübləndirir: hər hansı şəxsə və onun fəaliyyətinə himayədarlıq bu fəaliyyəti dəstəkləməkdir.

Biz tələb elirik ki, Partiya komitəsi və SSRİ Yİ-nın katibliyi təcili surətdə toplansın və Anarın fəaliyyətinə obyevktiv qiymət versin. Erməni sovet yazıçısı və publisisti Perç Zeytuntsyanın "Nifrət yarmarkası 2" adlı yazısını da göndəririk. Ermənistan KP MK-nın, Ermənistan SSR Ali Sovetinin və Ermənistan SSR Nazilər Sovetinin orqanı olan "Xorurdian Hayastan" ("Sovet Ermənistanı", 21 may 1989) dərc olunmuş bu yazıda məsələyə aydınlıq gətirilir və Ermənistan SSR əhalisinin yekdil qəzəbi ifadə edilir.

**Ermənistan Yazıçılar İttifaqı**
**Heyətinin katibliyi**
**25 may 1989**

Bakı faciəsindən iki gün qabaq yanvarın 17-də Azərbaycan KP MK-nın binasında bizimlə - ictimaiyyətin bir neçə nümayəndəsiylə görüşdə Primakov da, Sov. İKP MK katibi Girenko da and-aman eləmişdilər ki, Bakıda heç bir fövqəladə vəziyyətin elan olunması nəzərdə tutulmur, şəhərə heç bir qoşun hissələri girməyəcək. Bizi beləcə arxayınlaşdırmışdılar. "Sən öz saydığını say, gör fələk nə sayır". Qara yanvardan sonra Ali Sovet tətildən sonra ilk dəfə toplandı.

Məsələ Ali Sovetin qapalı iclasında da müzakirə edildi. E.Qafarova, T.İsmayılov, A.Məlikov, R.İbrahimbəyov və mən çıxış etdik. Hadisələrin həqiqi mahiyyəti haqqında, mərkəzi informasiya vasitələrinin birtərəfli mövqeyi haqqında səhih məlumat verildi. DTK-nin sədri Kryuçkov və o vaxtkı Daxili İşlər Naziri Bakatinin çıxışlarında müəyyən ölçü hissi vardısa, Müdafiə naziri Yazovun çıxışı başdanbaşa hadisələrin təhrifi idi. Yerimizdə otura bilmirdik. Nazir Şəhidlər Xiyabanı haqqında istehzayla danışanda ("Evdə ürək xəstəliyindən ölən qocaları da aparıb orda basdırıblar, heç bir uşaq-filan ölməyib", və s. bu qəbildən sözlər) daha dözə bilmədik, salonu tərk etdik.

Qabaqlar da salondan çıxan deputat qrupları olub, amma onlar çıxıb elə Ali Sovetin binasındaca gözləyir və tənəffüs zamanı rəhbərliklə danışığa girirdilər. Biz isə dərhal paltolarımızı geyinib mehmanxanaya yollandıq. Yalnız Qorbaçovla görüşüb danışandan sonra sessiyaya qayıdacağımızı bildirdik.

- Mənə sual verirlər, - dedim. - Nəyə görə Sov. İKP Mərkəzi Komitəsinin Plenumunda Qorbaçov yoldaş respublikalar arasında sərhədlərin dəyişdirilməyəcəyi haqqında fikrini bildirəndən sonra Ermənistanın Partiya katibi Suren Arutyunyan yenə durub Qarabağ məsələsini qaldırır və Qorbaçov onun sözünü kəsmir, halbuki, ondan əvvəl Litvanın katibi Brazauskasın sözünü kəsə bilirdi. Bu sualı mənə verəndə, mən sizə Qorbaçovun əvəzinə cavab verə bilmərəm, - deyirəm, amma yeri düşsə, imkanım olsa, bu sualı Mixail Sergeyeviçin özünə verərəm. Qorbaçov: "Mən bir daha təkrar eda bilərəm, - dedi. - Respublikalar arasında heç bir sərhəd dəyişkənliyinə yol verməyəcəyəm".

Qorbaçovla bundan qabaqkı görüşlərində dəfələrlə Qarabağ mövzusu qaldırıldığına görə bugünkü görüşdə diqqət mərkəzinə qanlı Yanvar hadisələrini çəkmək istəyirdik. Dünən Yakovlevin də dediyi kimi zalımlıqda ittiham edilməsi Qorbaçovun ürəyinə toxunur, onu çox incidirmiş.

Bizə də:

- Bəli, bilirəm, - dedi - Orda məni cəllad, qəddar, Çauşesku adlandırırlar.

- Bunu balalarını, qardaşlarını, atalarını itirən adamlar deyir, - dedim.

Yenə o gün dediyi fikri təkrar etdi ki, ordunu heç kimin ayağına verməyəcək. Əsgərlərə əmr olunub, ona görə atıblar.

- Kim əmr edir etsin, mən heç vaxt qadına, uşağa, qocaya güllə ata bilmərəm, - dedim. - Siz də elə. . .

Dinmədi. Söhbəti 13-14 yanvar hadisələrinə, talanlara gətirdi.

- Nazir Bakatin çıxış etdi, - dedim. - Göstərdi ki, o günlər talançıların sayı beş mindən artıq olmayıb. Eyni zamanda bunu da Bakatin dedi - həmin günlər Bakıdakı daxili qoşunların sayı 12 min nəfər imiş. Deməli, bir talançıya iki yarım milisioner düşür. Bəs niyə talanların qarşısını ala bilmədilər?

M.S.Qorbaçov düz gözümün içinə baxaraq:

- Doğrudan da, niyə talanların qabağını ala bilmədilər? - deyə soruşur. Məndən soruşur.

Yazımın bu yerində bir sual (?) və üç nida (!!!) işarəsi qoymaqdan savayı əlacım qalmır.

Nəhayət, görüşümüzün bir məqsədindən də söz açırıq: söhbət Ali Sovetin qəbul edəcəyi qərara yanvar hadisələrinin, qanlı divanın müqəssirlərini ittiham edən abzasın salınmasından gedir. Mən bu abzası əvvəlcədən yazıb hazır etmişəm, oxuyur və Qorbaçova təqdim edirəm. Bu abzasın qərara salınmağına heç cür razılıq vermir. Bəllidir ki, heç vəchlə ordunu narazı salmaq istəmir. Təkidlərimizdən sonra bir az yumşalır. Müəyyən redaktəylə abzasın qərara salınmasına razılıq verir. Tənəffüsdən sonrakı iclasda mən yenə çıxış elədim və dediyim abzası yazdığım kimi oxudum. Qorbaçov son sözündə: "Mən deputat Rzayevin hisslərini başa düşürəm", - dedi, amma son məqamda (artıq iclasdan sonra, bizsiz, Rəyasət heyəti aparatında mətbu mətn hazırlanarkən) yenə də bu abzas çıxarıldı. Belə qalmaqallı vaxtda hakimiyyətə dayaq olan Ordunun təəssübünü çəkmək - bütün qeyri-mülahizələrə, faktlara, həqiqət və ədalət hissinə üstün gəlmişdi.

Bu məsələdə ölkə parlamentində qələbə çala bilmədiksə, məğlub da olmadıq. Hər halda hadisələrin məğzini, mahiyyətini əsl mətləbdən bixəbər deputatlara çatdıra, səsimizi, etirazımızı, fəryadımızı eşitdirə bilmişdik. Bir növ qəribə tənasüb yaranmışdı Ali Sovetdə. Qarabağ məsələsində bizim mövqeyimizdə durmayan "sol - radikal" deputatlar ordunun Bakıya divan tutmasından qəti narazılıqlarını bildirirdilər, ordunun hərəkətini dəstəkləyən "mühafizəkar" və hərbçi deputatlar isə Qarabağ məsələsində bizimlə tam həmrəy idilər. Ümumiyyətlə, bu tənasüb həm qurultaylarda, həm də Ali Sovetin sessiyalarında bizim siyasi xətt-hərəkətimizi, taktik gedişlərimizi müəyyənləşdirmək üçün nəzərə alınası vacib faktordur. Bu cəhətdən bəzi deputatlarla qısa söhbətlərim çox səciyyəvidir. Marşal Axromeyevə yanaşdım, Bakıda olanları danışdım, ordunun amansız davranışı haqqında mənim rəyimlə qəti surətdə razı olmadığını bildirdi, amma dərhal əlavə etdi ki, Qarabağ məsələsində yüz faiz Azərbaycanın mövqeyini müdafiə edir. Sobçaka Yanvar divanı münasibətilə müraciət etdiyim zaman, "əlbəttə, ordunun hərəkətləri bağışlanmazdır, - dedi, - amma sizin, Azərbaycan ziyalılarının da günahı var, niyə Bakıdakı erməni talanlarının qarşısını ala bilmədiz? - Bakı iki milyonluq şəhərdir, - dedim. -Bəs nədən

# İCTİMAİ HƏYAT

Moskva ziyalıları Ədəbiyyat evində yəhudi talanının qarşısını ala bilmədi? - dedim. Sobçak: mən moskvalı deyiləm, leninqradlıyam, - dedi və söhbətimiz bununla bitdi.

Hadisələrin bilavasitə içində olan, Ali Sovetdə müxbir kimi iştirak edən mərhum Balaş Abbaszadə yazır.

"SSRİ Xalq deputatı seçilənə kimi mən Anarın çoxsaylı pərəstişkarlarından biriydim, onu yaxından tanımırdım, onunla heç bir ünsiyyətdə olmamışdım. Qələmindən çıxan bütün yazıları oxumağa çalışırdım.

Təsadüf elə gətirdi ki, mən iş yerimi dəyişməli oldum. Anar SSRİ Xalq deputatı seçildi. Çoxları təskinlik içində nəfəslərini dərdilər:deputat korpusu içində xalqın əzablarını, əziyyətini, faciəsini öz əzab-əziyyəti, öz faciəsi kimi yaşayan, millətin adından danışmağa qadir layiqli adamlarımız vardır. Unutmamalıyıq ki, Anar siyasətçi deyil, yazıçıdır. Lakin son iki ildə Anarın deputat kimi fəaliyyəti əvəzsizdir.



*Azərbaycandan SSRİ Xalq deputatlarıyla*

İşimlə əlaqədar tez-tez Moskvada deputatlarımızla ünsiyyətdə olmuşam. Onların fəaliyyətinin də, fəaliyyətsizliyinin də şahidlərindən biriyəm. Həmin ağır günlərdə mən Anar qədər işləyən, çalışan ikinci bir deputat yada sala bilmirəm. Anar öz çıxışlarından başqa digər deputatlar üçün də çıxışlar yazırdı, şəxsi əlaqəsi olan deputatlarla söhbətlər aparırdı. Bəzi deputatlarımız (dili bilmədiyindənmi, yorğunluğunu bəhanə gətirməklə) Moskvada zülmlə təşkil edilmiş müxtəlif görüşlərdən imtina edəndə qabağa düşən Anar olurdu. Özü də Anar çalışmırdı ki, gördüyü işlərin sorağı Azərbaycana çatsın. Çalışırdı ki, erməni versiyası tədricən də olsa, damla-damla da olsa, dağılsın, çoxüzlü "həqiqətin" əvəzinə yeganə həqiqət dünyaya yayılsın. Anar demişkən əgər SSRİ Xalq deputatlarının Birinci qurultayında ermənilərin gündəliyə beş məsələ daxil etmək istəyi baş tutmamışdısa, bu da deputatlarımızın səyi nəticəsində olmuşdu. Anarın mart ayında İttifaq hökümətinin, Mərkəzin ünvanına söylədiyi tənqidi çıxışı həmin fikrə sübutdur.

**Balaş ABBASZADƏ**
***"Anlamaq dərdi"***
***"Respublika" qəzeti, 14 noyabr 1990***

### ANARIN SEVİNC TELMANQIZIYLA "YENİ MÜSAVAT" QƏZETİNDƏ DƏRC OLUNMUŞ MÜSAHİBƏSİNDƏN

- Sizinlə bağlı maraqlı məqamlardan biri də bütün siyasi hakimiyyətlərin dövründə AYB sədri kimi qəbul olunmağınızdır. Yəni, həm Ə.Vəzirov, həm A.Mütəllibov, həm Ə.Elçibəy, həm də N.Əliyev, İ.Əliyev sizi həm yazıçı, həm də AYB sədri kimi dəstəkləyib. Bütün prezidentlərlə ortaq məxrəcə gələ bilməyinizin sirri nədədir?

- Rəhmətlik Kamran Bağırovu unutdunuz. Mən məhz onun vaxtında Yazıçılar İttifaqının (onda belə adlanırdı) Birinci katibi seçilmişəm. Sualınıza gəldikdə isə, əvvəla, məni yalnız ölkəmizə rəhbərlik edən şəxslər deyil, Azərbaycanda və dünyanın bir sıra ölkələrində yüz minlərlə oxucum da yazıçı kimi qəbul edir. Heç bir rəhbərlə ortaq məxrəcə gəlmək niyyətim olmayıb. Mənə hörmətlə yanaşanlara mən də hörmət etmişəm. Vəzifə başında olanda razılaşmadığım məsələləri üzlərinə demişəm, vəzifədən gedəndən sonra isə heç birinin dalınca danışmamışam. Mənə həvalə olunan bütün işlərdə - istər Yazıçılar Birliyi olsun, istər Milli Məclisin Mədəniyyət komissiyası - vicdanla işləməyə və əlimdən gələni etməyə çalışmışam. "Sirr" - budur.

**"Yeni Müsavat" qəzeti**
**2004**

Belə bir çətin şəraitdə hörmətli yazıçımız Anar Ağdama gəldi. Elçin Əfəndiyev və Əkrəm Əylisliylə birlikdə. Anar müəllim dedi ki biz Şuşaya getmək istəyirik. Düzü mən çox təəccüb etdim. Çünki belə bir gərgin vəziyyətdə, ermənilərin "miatsum" deyə bağırdıqları bir vaxtda oraya getmək böyük risk idi. Mən Anar müəllimə dedim ki, məsləhət görmürəm Şuşaya gedəsiniz, çünki çox qorxuludur. O vaxt az adam gedirdi ora - istər dövlət tərəfindən, istərsə də ziyalılardan. Amma bu Anar müəllimin öz təşəbbüsü idi. Mən Anar müəllimə nə qədər dedim ki, belə bir vəziyyətdə getmək olmaz, o dedi, yox, biz mütləq getməliyik, biz gəlmişik Şuşaya getməyə. Vertolyotla Şuşaya uçdular. Şuşada yaşayan azərbaycanlılar dərdlərini Anar müəllimə danışmışdılar. Qayıdanda dedi ki, rəhbərliklə danışacaq. Mən o vaxt gördüm ki, Anar müəllim necə cəsarətli ziyalıdır. Onda heç bir qorxu-ürkü hissi yox idi. Anar müəllimi əvvəldən də tanıyırdım. Amma o hadisədən sonra ona hörmətim və rəğbətim birə beş artdı.

**Kamil MƏMMƏDOV**
***İstefada olan general***
***1988***

Azərbaycan ziyalılarından bəziləri belə bir etiraz forması seçiblər ki, həbs olunanların azadlığa buraxılması və s. məsələlərlə əlaqədar müraciətlərə imza qoysunlar. Demək olar ki, həmişə belə müraciətərin altında Anarın imzası olur. Nə səbəbdən bunu edir? Yazıçı bu sualıma belə cavab verdi:

Doğrudan da mən sovet vaxtında da, Xalq cəbhəsinin hakimiyyəti dövründə də, sonralar da həbs olunanların müdafiəsinə qalxmışam. Bunu indi də edirəm. Mən yazıçıyam və iki böyük yazıçını xatırlayıram. Onlardan biri - Çexov deyirdi: Qoy lap Dreyfus günahkardır, Zolya hər halda haqlıdır, çünki yazıçının işi ittiham, təqib etmək deyil, artıq ittiham olunmuş və cəza çəkən günahkarları belə müdafiə etməkdir. İttihamçılar, prokurorlar, jandarmlar onsuz da yetərincədir.

**Elmira AXUNDOVA**
***"Literaturnaya qazeta" 5 fevral 1997***

### XƏLİL RZA ULUTÜRKÜN GÜNDƏLİYİNDƏN

Konvoyun qabağında müstəntiqim Aleksandr Qubinskinin hüzuruna gəlirəm. Salamlaşırıq. Qarşıma bir stəkan çay, iki konfet qoyub deyir:

- İndicə Anar zəng eləmişdi. Sən çayını içənə gəlib çıxar.

Sevincimin yerini möhkəmləndirmək üçün:

- Hansı Anar? - deyə soruşuram - mənim qardaşım oğlunun da adı Anardır.

- Yox - deyir - Sizin Yazıçılar Birliyinin sədri, məşhur yazıçı, SSRİ Ali Sovetinin deputatı Anardan söhbət gedir.

Sevincimin yeri möhkəmlənir və birdən-birə bu geniş salon ağ, ipək pərdəli hündür pəncərələri günəşə açılmış böyük otaq, tavandan asılmış büllur çılçıraq nəzərimdə bir az da şəfəqlənir. Dizlərimə taqət, gözlərimə işıq gəlir, az qala qışqırıram ki, Anarın gəlişi mənim üçün Azərbaycanın gəlişi və Azadlıq deməkdir. Çox istəyirəm bu yazıçını. Əvvəla parlaq şəxsiyyətinə, insani fəzilətlərinə, ikincisi də sənətkar gücünə görə.

Mən bu düşüncələr içində olarkən addım səsləri eşidilir, qapını açıb böyük salona qədəm qoyan və sürətli addımlar ilə gələn Anarımızdır. Qalxıram. Qucaqlaşıb öpüşürük və üz-üzə əyləşirik. O pəncərə tərəfdədir. Mən də Anarla və günəşlə göz-gözə.

**"525-ci qəzet", 14 mart 2003**

**P.S.** *Az sonra Xəlil Rza azadlığa çıxdı.*



*İsmayıl Şıxlı, Ziya Bünyadov, Vaqif Səmədoğlu, Xəlil Rza Ulutürklə Azadlıq meydanında*